**Aypara ABBASOVA**
*AMEA Fəlsəfə İnstitutu*
*“İnformasiya cəmiyyətinin fəlsəfi problemləri” şöbəsinin kiçik elmi işçisi*

# AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN (İKT) İNKİŞAFINA DAİR

Məlum olduğu kimi BMT-nin Baş Assambleyasının qərarına əsasən informasiya cəmiyyəti minilliyin ideologiyası kimi qəbul olunmuş və artıq bütün dünyada qlobal informasiya cəmiyyəti qurulur. Dünyanın tərəqqipərvər və inkişaf etmiş dövlətləri həyati tələbata çevrilən bu proseslərdə fəal iştirak edir, minilliyin ideologiyasında təmsilçilik fəaliyyətini genişləndirirlər. Cenevrədə və Tunisdə informasiya məsələlərinə həsr olunmuş ümumdünya sammitlərinin yekun sənədlərində informasiya cəmiyyəti şəraitində millətlərin və xalqların tarixi-mədəni dəyərlərinin, dillərinin, milli xüsusiyyətlərinin qorunması və rəqəmsal irsə çevrilməsini təmin etmək çağırışları bu şəbəkənin önəmini daha da artırır. Hazırda inkişaf etməkdə olan İnternet şəbəkəsinin infrastrukturu planetin hər bir nöqtəsini əhatə etməkdədir. Tələbata və elmin sürətli inkişafına uyğun virtual məkanda son zamanlar dünya ictimaiyyəti tərəfindən istifadə olunan və çox mühüm əhəmiyyət kəsb edən bir sıra informasiya resursları yaranmaqdadır.

Dünya ölkələrində uzun müddətdir gedən bu prosesə Azərbaycanda keçən əsrin 90-cı illərindən başlanmışdır. Hazırda ölkəmiz İKT-nin infrastruktur, yeni kadrlar ordusunun yaranması baxımından qabaqcıl respublika kimi tanınır. İKT sektorunun sürətli inkişafı Azərbaycanda informasiya cəmiyyətinin qurulmasına, ölkəmizin qloballaşan dünyanın lider dövlətləri ilə eyni səviyyədə dayanmasına şərait yaradıb. İnformasiya cəmiyyətinin formalaşması istiqamətləri genişdir və İKT-nin hərtərəfli tətbiqi onu deməyə əsas

verir ki, ölkəmizdə bu cəmiyyətin texnoloji özülü yüksək səviyyədə formalaşır. Bu da onun üzərində qurulan İnternet infrastrukturunun inkişafına, Azərbaycanın bütün bölgələrinin keyfiyyətli İnternetlə təmin olunmasına imkan verir. Dünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan İKT-nin dövlət səviyyəsində istifadəsinə görə dünya ölkələri arasında 49-cu, dövlət hakimiyyət orqanlarında İKT-nin tətbiqinə görə isə 31-ci pillədə qərarlaşmışdır. Hesabatda ölkəmizdə İKT-yə dair qanunvericilik və dövlət idarəsi amilləri də yüksək qiymətləndirilmişdir.[1] Azərbaycan hökumətinin İKT-nin tətbiqi üçün dövlət hazırlığı reytinqi də yüksək qiymətləndirilmişdir. Bu parametr üzrə ölkəmiz dünyanın ilk 30 ölkəsi sırasında yer almışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyir: "Azərbaycanda bütünlükdə informasiya-kommunikasiya sektoru çox uğurla inkişaf edir".[2]

Cəmiyyətin inkişafı və təşəkkülü informasiya texnologiyalarının, konkret olaraq İnternetin imkanlarına əsaslanır. İKT-nin inkişafına dair təşkil olunan beynəlxalq simpozium və konfranslarda müasir cəmiyyətin əsas özəyi olan İnternetin qanunauyğunluqları, dəyərləri qiymətləndirilir, yenilənir və təkmilləşdirilir. İKT-nin müxtəlif problemlərinin araşdırılması, həlli və tətbiqi ilə bağlı alimvə mütəxəssislər arasında əməkdaşlıq əlaqələri yaradılır, bilik, təcrübə mübadiləsi aparılır, qlobal layihələr həyata keçirilir. İnformasiya texnologiyalarının yaratdığı mükəmməl imkanlar sayəsində innovativ bilik inteqrasiyası prosesləri sürətlənir, insanlar arasında yeni ünsiyyət, əlaqə formaları (forum, çat, videokonfrans, telekörpü) yaranır, müxtəlif sahələrdə mövcud problemlərin həlli asanlaşır. Bir sözlə, İKT-nin müxtəlif taleyüklü problemlərin həllində, ölkələrin öz mədəniyyətlərini daha geniş şəkildə yaymaqda da rolu getdikcə artır. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili"elan edilib.

---

[1] Azərbaycan İKT-nin tətbiqi üzrə regionda lider ölkədir www.anl.az/down/meqale/azerbaycan/2010/..

[2] İKT-nin inkişafı və informasiya təhlükəsizliyinin təminatı https://teknobaycan.wordpress.com/.

2003-2012-ci illəri əhatə edən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın cəmiyyətin müxtəlif sahələrinə tətbiqi nəticəsində İKT sahəsi əsaslı inkişaf etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 22 oktyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan) rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə imkan yaradan mükəmməl fəaliyyət konsepsiyası olmuşdur. Həmçinin Prezidentin sərəncamı ilə "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət proqramı (Elektron Azərbaycan) təsdiq edilmişdir. [1] Azərbaycan bu gün çoxsaylı ölkələrlə əməkdaşlığını daha da artırmaq, öz mədəniyyətini, milli-mənəvi dəyərlərini və.s. daha geniş təbliğ etmək, tanıtmaq məqsədilə İnternet İdarəçiliyi Forumlarında iştirak edir, müxtəlif dövlətlərlə bu sahədə müqavilələr imzalayır. Buna misal olaraq Azərbaycan nümayəndə heyətinin Balidə (İndoneziya) keçirilən «Körpülərin qurulması: çoxtərəfli əməkdaşlıqda hökumətlərin rolu» mövzusunda VIII İnternet İdarəçiliyi Forumunda (IGF) iştirak etməsini, Portuqaliya Respublikasının Azərbaycan dövləti ilə əməkdaşlığını, Bakı Dövlət Universitetində (BDU) «İnformasiya Kommunikasiya Texnologiyalarının Tətbiqi - AİCT 2013″ VII Beynəlxalq Konfransı, Azərbaycanın «Sazz 4G Internet» provayderinin Rio-de-Janeyroda (Braziliya) keçirilən «2013 GTI» konfransda iştirakını və.s. göstərmək olar.[2] İnformasiya cəmiyyətinin inkişafı şəraitində milli kontingentin genişləndirilməsinə, ölkəmizin milli-mədəni irsinin qorunub saxlanılmasına və inkişafına, əhalinin ondan müasir texnologiyalar vasitəsilə istifadəsinə və bilik səviyyəsinin artırılmasına diqqət yetirilməsi vacibdir.

---

[1] Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının *...e-qanun. gov. az/ framework/10778*

[2] Azərbaycan nümayəndə heyəti VIII İnternet İdarəçiliyi Forumunda *...https:// azertag. Az /xeber/38046*

Bu gün artıq milli kontingentin zənginləşdirilməsinə xidmət edən İnternet resurslarının yaradılması, Azərbaycan tarixi, vətənpərvərlik mövzuları, ədəbi və mədəni irs üzrə rəqəmli arxivlərin yaradılması, milli-mədəni nailiyyətlərə, yerli xalqların və milli azlıqların adət-ənənələrinə həsr olunmuş elektron resursların yaradılması, gələcək nəsillər naminə mədəni irsin qorunması və rəqəmləşdirmə və onlayn medianın inkişaf etdirilməsi, yeni media vasitələrindən səmərəli istifadə və s. bariz nümunədir.

Milli Strategiyanın həyata keçirilməsinin əsas göstəricisidir ki, cəmiyyətin hərtərəfli inkişafı üçün informasiya cəmiyyətinin yaratdığı bütün imkanlardan bəhrələnməyə əlverişli şərait yaradılmış, İnternet magistrallarına alternativ və yüksəksürətli birləşmələr təmin olunmuş, tranzit informasiya imkanları genişləndirilməklə, Azərbaycan Respublikası regionun İKT xidmətləri bazarının aktiv iştirakçısına çevrilmiş, Azərbaycan dilinin milli elektron informasiya məkanında istifadəsi, mədəni irsin qorunmasında İKT-nin tətbiqi genişlənmiş, "AZ" milli domen zonasında fəaliyyət göstərən internet resurslarının sayı artmışdır.[1]

Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasının əsas istiqamətləri qeyri-neft sektorunun inkişafı hesabına davamlı iqtisadi artıma və tərəqqiyə nail olunması və iqtisadiyyatın şaxələndirilməsidir. Bu məqsədlə ölkəmizin ümumi daxili məhsulunun tərkibində, həmçinin dövlət büdcəsinin formalaşdırılmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyünün təmin edilməsi, iqtisadiyyatda innovasiyaların tətbiqinin genişləndirilməsi üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi nəzərdə tutulur. Mövcud resurslardan və coğrafi mövqelərdən istifadə olunmaqla, Azərbaycan Respublikasının bütün bölgələrinin sosial-iqtisadi inkişafının müasir tələblər səviyyəsində təmin edilməsi və iqtisadiyyatımızın rəqabət qabiliyyətinin yüksəldilməsi milli məhsulların dünya bazarında layiqli yer tutmasına şərait yaradacaqdır. Bu məqsədlər Azərbaycan Respublikası

---

[1] Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair. www.anl.az/ down/meqale/azerbaycan/2014/.

Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş *"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"*nda öz əksini tapmışdır. Konsepsiyada əsas hədəf qarşıdakı səkkiz-on ildə Azərbaycan Respublikasında əsasən qeyri-neft sektorunun inkişafı hesabına ümumi daxili məhsulun 2 dəfə artırılması və bu artımın respublikada innovasiyayönlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması hesabına həyata keçirilməsidir. Belə inkişafın əsas dayaqlarından biri informasiya və kommunikasiya texnologiyalarıdır (İKT). İKT yüksək artım tempinə malik yeni iqtisadi sektor kimi müasir və çoxtəyinatlı infrastruktur, habelə hərtərəfli sosial-iqtisadi tərəqqinin aparıcı qüvvəsi rolunu oynayır.

Bu gün İKT respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi, Azərbaycan mədəniyyətinin beynəlxalq aləmə inteqrasiyası üçün əlverişli vasitə olaraq qəbul edilir. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank işi və digər sahələrdə yeni dəyərlər yaradan İKT ictimai-iqtisadi, mədəni münasibətlərin vacib tərkib hissəsinə çevrilmişdir. İnternet mediasının inkişafı, İnternetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır.

Bir sözlə, görünən odur ki, bu gün Azərbaycan hər sahədə sürətlə inkişaf edir və dünya ölkələri ilə rəqabət apara bilmək gücündədir. Azərbaycan istər siyasi, iqtisadi, milli-dini, istərsə də mədəni sahədə nüfuzlu beynəlxalq təşkilatlarla, qurumlarla səmərəli əməkdaşlıq edir və bu cür əməkdaşlığını davam etdirəcəyəni həmişə çox yüksək kürsülərdən bəyan edir. Təbii ki, proseslərin bu cür inkişafında Azərbaycanda sürətlə inkişaf edən informasiya cəmiyyətinin böyük rolu və payı vardır.

**Açar sözlər:** *informasiya cəmiyyəti, informasiya texnologiyaları, ideologiya, milli strategiya, konsepsiya, davamlı inkişaf.*

**Айпара АББАСОВА**

# РАЗВИТИЕ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА (ИКТ) В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

Стремительное развитие сектора информационно-коммуникативных технологий (ИКТ) создало условия для появления информационного общества в Азербайджане – стране, находящейся на одном уровне с ведущими государствами глобализированного мира. Тенденции формирования информационного общества обширны, поэтому комплексное применение ИКТ дает основание утверждать, что технологическая основа его сформирована в нашей стране на высоком уровне.

Сегодня ИКТ признаны жизнеспособным инструментом в деле обеспечения устойчивого развития страны, повышения ее интеллектуального потенциала, расширения бизнеса, борьбы с коррупцией, сокращения бедности и безработицы, продвижения прозрачности и демократии в обществе, а также интеграции азербайджанской культуры в международное сообщество.

**Ключевые слова:** *информационное общество, информационные технологии, идеология, национальная стратегия, концепция, устойчивое развитие.*

**Aypara ABBASOVA**

# DEVELOPMENT OF INFORMATION SOCIETY (ICT) IN AZERBAIJAN

ABSTRACT

The rapid development of the ICT sector has created the conditions for creating an information society in Azerbaijan, the country which is on the same level as the leading states of the globalized world. The trends in the formation of the information society are extensive and the integrated use of ICT gives grounds to assert that the technological basis of this society is formed at a high level in our country.

Today, ICT is recognized as a viable tool in ensuring sustainable development of the country, increasing its intellectual potential, developing business, fighting corruption, reducing poverty and unemployment, promoting transparency and democracy in society and integration Azerbaijani culture into the international community.

**Keywords:** *information society, information technologies, ideology, national strategy, concept, sustainable development.*